Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Özəl sektor iqtisadi tərəqqidə daha böyük pay sahibinə çevrilir...

## Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

**Dünya təcrübəsi göstərir ki, azad bazar iqtisadiyyatı, sərbəst istehsal, özəl sektor, sahibkarlıq fəaliyyəti olmadan cəmiyyətin rifah halının yüksəlməsi, sosial-iqtisadi inkişafı mümkün deyil. Ölkə iqtisadiyyatının bütün sektorlarında müstəqil iqtisadi subyektlərin formalaşması dünya iqtisadi tendensiyalarının əsas tələblərindən biri kimi çıxış edir.**

Bu tendensiyalara cavab verən ölkələr iqtisadiyyatlarında daha dinamik tərəqqi qeydə alırlar. Bunu Azərbaycanın timsalında da görmək olar.

### Sahibkarlığın ahəngdar qaydada inkişafı dövlətin iqtisadi siyasətinin prioritetidir

Bazar iqtisadiyyatının müstəqil bir sistemi olaraq sahibkarlığın ahəngdar qaydada inkişafı məqsədilə dövlət tərəfindən bu vaxta qədər çoxsaylı mühüm addımlar atılıb və atılmaqdadır. Maliyyə və vergi sisteminin inkişafına, o cümlədən bu sahədə qanunvericiliyin və inzibatçılığın təkmilləşdirilməsinə mühüm diqqət yetirilməsi də qeyd edilənlərin faktiki təsdiqidir. Burada başlıca məqsəd məhz sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına nail olmaqdır. Görülən tədbirlər nəticəsində sahibkarlar üçün xidmət səviyyəsinin yaxşılaşdırılması ölkəmizdə davamlı xarakter alıb. Nəticə etibarı ilə dövlət xüsusən də mikro, kiçik və orta sahibkarlığın subyektlərinin sayının əhəmiyyətli dərəcədə artmasına nail olub. Bunlara paralel olaraq uçot sisteminin şəffaflaşdırılması, malların alqı-satqı prosesində sənədləşmənin aparılmasının yeni qaydalarının tətbiqi və digər istiqamətlərdə mühüm islahatlar ölkə iqtisadiyyatında sahibkarların rolunun daha da artmasına gətirib çıxarıb.

Bəzi statistik rəqəmlərə nəzər salmaqla da qeyd edilənlərin real sübutlarını görmək olar. İqtisadiyyat Nazirliyinin açıqladığı rəqəmlərə əsasən, cari ilin 9 ayında Azərbaycanda vergi ödəyicilərinin sayı daha 5 faiz artıb. Bunu şərtləndirən başlıca səbəb ölkəmizdə koronavirus pandemiyası ilə bağlı biznesə verilən dəstək olub. Ümumilikdə, son 10 ildə ölkədə aparılan struktur islahatları, iqtisadiyyatın şaxələndirilməsi qeyri-neft-qaz sektorunu iqtisadiyyatın aparıcı inkişaf amilinə çevrilib, ümumi daxili məhsulun (ÜDM) tərkibində onun xüsusi çəkisi 48 faizdən 70 faizə çatıb. Qeyri-neft-qaz sektoru isə məhz özəl sektorun, yeni sahibkarların hesabına belə dinamik inkişaf edir.

Hesablamalar göstərir ki, Azərbaycanda sahibkarlıq subyektlərinin 99 faizni mikro, kiçik və orta biznes (KOB) subyektləri təşkil edir. 2021-ci ilin 1 yanvar tarixinə qeydiyyata alınmış sahibkarlıq subyektlərinin 92,1 faizni mikro, 5,3 faizni kiçik, 2,1 faizni isə orta sahibkarlıq subyektləri təşkil edib. 2021-ci il yanvarın 1-i vəziyyətinə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı isə 1 milyonu ötüb. Cari ilin ötən dövrü ərzində onların sırasına daha 50 min sahibkarlıq subyekti əlavə olunub. Qeyd edək ki, Nazirlər Kabinetinin 21 dekabr 2018-ci il tarixli Qərarı ilə təsdiq edilmiş mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin yeni bölgüsü meyarlarına uyğun olaraq, işçilərinin sayı 10-dək və illik gəliri 200 min manatadək olanlar mikro sahibkarlar, işçilərinin sayı 11-50 arasında və illik gəliri 200 min manatdan 3 milyon manatədək olanlar kiçik sahibkarlar, işçilərinin sayı 51-250 arasında və illik gəliri 3-30 milyon manat arasında olanlar isə orta sahibkarlar hesab edilir. Hazırda bütün dünya ölkələrində olduğu kimi Azərbaycanda da iqtisadi inkişaf məhz qeyd edilən kateqoriyadan olan sahibkarlıq subyektlərinin üzərində dayanır.



### Sahibkarların sayının artmasına paralel olaraq ölkədə məşğulluq səviyyəsi də yüksəlir

Hazırda dövlət üçün maraq doğuran başlıca məsələlərdən biri bundan sonra da ölkədə sahibkarlıq subyektlərinin artırılmasıdır. Bu məqsədlə müvafiq dövlət qurumları, o cümlədən Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən zəruri addımlar atılır.

Xatırlatmaq yerinə düşərdi ki, ölkəmizdə bir sıra qurumlar, əsasən də KOBİA tərəfindən sahibkarlara müxtəlif dəstək və xidmətlər təqdim olunur, güzəştlər, müxtəlif formada dövlət dəstəyi həyata keçirilir. Məsələn, mikro sahibkarlıq subyekti olan fərdi sahibkarların sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirin, mikro sahibkarlıq subyekti olan hüquqi şəxslərin sahibkarlıq fəaliyyətindən əldə etdikləri mənfəətin 75 faizi vergidən azaddır. Eyni zamanda, mikro sahibkarlıq subyektləri əmlak vergisindən azaddır. Bundan başqa, KOBİA tərəfindən mikro, kiçik və orta sahibkarlara daxili bazar araşdırmasının aparılmasına, təhsil, elm, tədqiqat və dəstək layihələrinin reallaşdırılmasına maliyyə dəstəyi, satış imkanlarını genişləndirmələri üçün ixtisaslaşmış sərgilərdə təmənnasız iştiraklarına, bilik və bacarıqlarının artırılması üçün ödənişsiz təlim və məsləhət xidmətlərinin göstərilməsinə, sosial sahibkarlığın inkişafına da dəstək göstərilir. Bütün bunlar sahibkarların sayının artırılmasına, onların ölkə iqtisadiyyatında rolunun gücləndirilməsinə hesablanıb. Bu fonda sahibkarların maliyyə ehtiyaclarının qarşılanması da diqqət mərkəzində yer alır. Bundan irəli gəlir ki, Azərbaycanda özəl sektora dövlət dəstəyi çərçivəsində 2021-ci ilin yanvar-avqust ayları ərzində 945 investisiya layihəsinin maliyyələşdirilməsinə 48,4 milyon manat güzəştli kredit verilib. Qeyri-neft sektoruna verilən bu kreditlər hesabına ölkə üzrə 1400-dən çox yeni iş yerinin açılması mümkünləşib. Ümumiyyətlə, sahibkarların sayının artmasına paralel olaraq ölkədə məşğulluq səviyyəsi də yüksəlir. Elə bu da dövlətin əsas istəklərindən biridir. Bütün bunlar bir daha təsdiq edir ki, sahibkarlıq, əsasən iqtisadiyyatın artım sürətini təyin edərək, dövlətin intensiv inkişafına töhfə verən bazar iqtisadiyyatının vacib bir elementidir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**